Azərbaycan Respublikasının Prezidenti
**cənab İlham Əliyevə**

surəti: Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri
**Cənab Anar Bağırova**

surəti: 27 saylı Vəkil Bürosunun direktoru
**cənab Rasim Verdiyevə**

Bakı şəh, Nərimanov r-nu, Ş.Mustafayev küç, Ev 27, mən 182 ünvanında qeydiyyatda olan Mustafayev Babək Elxan oğlu tərəfindən
**Mob: 077-581-43-42**

# TƏŞƏKKÜR MƏKTUBU

Bildirmək istəyirəm ki, mən uzun illər "Azərişıq" ASC-nin Nərimanov RETSİ-nin enerji satış şöbəsində nəzarətçi mühəndis vəzifəsində işləmişəm. 23.04.2025-ci il tarixdə işə gələrkən mənə əvvəlcədən heç bir xəbərdarlıq edilmədən 22.04.2025-ci il tarixli əmrlə artıq işdən azad edildiyim bildirilmişdir. Göstərdiyim bütün səylərə baxmayaraq mənim işə bərpa edilməyim danışıqlar yolu ilə mümkün olmadı və mənə bu məsələnin yalnız məhkəmə qaydasında həll oluna biləcəyi bildirildi.

Pozulmuş hüquqlarımın bərpa edilməsi üçün məhkəməyə müraciət etmək qərarına gəldim. Ancaq bunun üçün maddi imkanlarım o qədər də əlverişli olmadığından qardaşım mənə tanıdığı bir vəkilin olduğunu, onun mənə kömək edə biləcəyini bildirdi və mənə həmin vəkilin nömrəsini verdi. Mən də vəkillə əlaqə saxlayanda o mənə Bakı şəhəri 27 saylı Vəkil Bürosuna gəlməyimi dedi. Büroya gəldikdə həmin insanın vəkil Cumayev Binyamin Vaqif oğlu olduğunu öyrəndim. Onun vəkilliyə yeni qəbul olduğunu öyrəndikdə bu işin öhdəsindən necə gələcəyi məndə tərəddüd hissi yaratsa da, sonradan bütün bunlar aradan qalxdı.

Binyamin Cumayevə maddi imkanımın zəif olduğunu bildirdikdə o mənə təmənnasız kömək etməyi təklif etdi amma mən buna razılaşmadım və müqavilənin məbləğini soruşdum. Vəkil mənim maddi durumumu, himayəmdə azyaşlı övladlarımın olduğunu nəzərə alaraq qarşılaya biləcəyim bir məbləğ təklif etdi və mən dərhal razılaşdım. Onu da qeyd edim ki, sonradan öyrəndim ki, mənimlə bağladığı müqavilə onun ilk müqaviləsidir.

Müqavilə bağladıqdan sonra Binyamin Cumayev iddia ərizəsi ilə Nəsimi rayon məhkəməsinə müraciət etdi. Çox az bir məbləğdə pul almasına baxmayaraq ona verdiyim bütün məlumatlar əsasında vicdanla işini görməyə çalışdı. Çünki bizim Nəsimi rayon məhkəməsində olan iddiamız üzrə 5 hazırlıq iclası, 2 baxış iclası keçirildi. Bütün proseslərdə hətta mənim gecikmələrimə baxmayaraq vaxtında və lazımi qaydada iclaslarda iştirak edirdi və mütəmadi olaraq işin gedişi barədə mənə məlumatlar verirdi. İddianın mənim xeyrimə həll edilməsi üçün lazımi bütün sənədləri və ərizələri məhkəməyə təqdim edirdi.

Təəssüflər olsun ki, Binyamin Cumayevin bütün səylərinə və zəhmətinə baxmayaraq Nəsimi rayon məhkəməsi bizim əleyhimizə qərar verdi. Bu qərardan sonra mən əleyhimə qərar verilməsindən çox vəkil Binyamin Cumayevin əziyyətinin yerdə qalmasına

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 4782
«12» 12 2025 il

təəssüfləndim. Buna baxmayaraq o mənə təsəlli verərək hələ qarşıda Apellyasiya instansiyası olduğunu dedi. Buna imkanımın olmadığını dedikdə tamamilə təmənnasız Apellyasiya şikayətini tərtib etdi və məhkəməyə verdi.

Hörmətli cənab Prezident,

hesab edirəm ki, ölkəmizdə bu cür savadlı və qayğıkeş insanların olması Sizin uğurlu və humanist siyasətinizin nəticəsidir. Eyni zamanda Vəkillər Kollegiyasının rəsmi səhifəsindən də gördüyüm qədərilə tərəfinizdən "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalandıqdan sonra daimi olaraq savadlı və bacarıqlı hüquqşunasların vəkil adı qazanmalarına şərait yaradılır. Bunun üçün də şəxsən Sizə, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin Sədri Anar Bağırova, Bakı şəhəri 27 saylı Vəkil Bürosunun direktoru Rasim Verdiyevə və mənə vəkillik yox yoldaşlıq edən vəkil Binyamin Cumayevə dərin minnətdarlığımı bildirirəm.

Belə vətənini və xalqını sevən vəkilləri eləcə də onlara dəstək verən Vəkillər Kollegiyasının rəhbərliyinin fəaliyyəti mənim kimi bir çox vətəndaşların qəlbində ümid yaradır.

Bir daha təşəkkür edirəm!

**Hörmətlə,**

**Mustafayev Babək Elxan oğlu**

**Tarix:** 10.12.2025